# QƏZƏNFƏRƏ HƏR KEÇƏN GÜN ONUN ÜÇÜN NƏ QƏDƏR ÇOX DARIXDIĞIMIZI SÖYLƏYƏRDİM...



**Xüsusi Təyinatlı Qüvvələrin giziri, Vətən müharibəsi şəhidi Qəzənfər Ədalət oğlu Mütəllimovun (27 yanvar 1992-ci il Sumqayıt şəhəri-5 oktyabr 2020-ci il Cəbrayıl rayonu) həyat yoldaşı Zöhrə Mütəllimova ilə müsahibə**

*Hər dəfə müxtəlif regionlardan olan, müxtəlif yaş həddində, müxtəlif təhsilə malik, müxtəlif sosial təbəqələrdə böyüyüb boya-başa çatmış şəhidlərimizlə maraqlananda, onların taleyinə, ömür yoluna nəzər salanda insanda bir hiss özünü daha çox büruzə verir. Bu hiss vətənpərvərlik hissidir. Onlar vətən yoluna işıq salan mayakdırlar. Onlar bizə və gələcəyə şəhadətlərini miras qoyub gediblər. Şəhidlərimiz gələcəkdə nəsillərdən nəsillərə ötürüləcək olan və gələcək nəsillərin vətənpərvərlik hisslərini qabardacaq dastanları bizlərə miras qoyub gediblər. Şəhidlər seçilmiş vətən fədailəridir. Onlar Allah tərəfindən seçilən və belə demək mümkünsə, bəlkədə Allah tərəfindən göydən yerə göndərilən bəndələrdir. Allahın ordusunun ən yüksək rütbəli əsgərləri olan şəhidlər vaxtı gələndə Allahın onlara verdiyi son tapşırığı canları bahasına icra edirlər. O tapşırıq vətən yolunda şəhid olmaqdır. Bu, öz-özlüyündə insandan böyük bir cəsarət, dözüm, mətanət tələb edir. Bu tapşırığın məğzi, mənası damarında saf qan axmayan, millətini, soy-kökünü, vətənini danan və bütün vətənpərvərlik hisslərindən uzaqlaşan bir məxluq üçün anlaşılmaz və qorxuludur. Kim bir anda öz canını Vətən uğrunda fəda edə bilər? Həmin o bir anda kim ailəsindən, xəyallarından, gələcək haqda planlarından, arzularından heç düşünməyərək keçər? Bu, fədailik işidir və bunu ancaq damarında əsil qan axan, soylu, milləti və vətəni üçün candan yanan və Allah tərəfindən xüsusilə göydən yerə endirilən insanlar edər.*

*Həmin fədailərdən biri də indi qısa, eyni zamanda olduqca mənalı ömür kitabının səhifələrini vərəqləyəcəyimiz Xüsusi Təyinatlı Qüvvələrin giziri, Vətən müharibəsi şəhidi Qəzənfər Mütəllimovdur.*

*Qəzənfər Ədalət oğlu Mütəllimov 27 yanvar 1992-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Üç bacının tək qardaşı, evin sonbeşiyi olub Qəzənfər. Orta məktəbi əla qiymətlərlə başa vurduqdan sonra o, həvəslə hərbi xidmətə yollanıb, Tərtərdə və Goranboyda yerləşən "N" saylı hərbi hissələrdə, Azərbaycan-Ermənistan təmas xəttində, səngərlərdə hərbi xidmət etmişdir. Hərbi xidmət zamanı bir an belə gözünü qırpmadan, sayıqlığı əldən verməyərək,düşməndən çəkinmədən qəhrəmancasına onunla üz-üzə dayanan, ondan qorxmayan, əksinə düşmən canına vəlvələ salan Qəzənfər çevikliyinə, cəsurluğuna görə diqqəti cəlb etmişdi.O, komandanlıq tərəfindən manqa komandiri vəzifəsinə irəli çəkilmiş, hərbi xidmətini başa vurduqdan sonra gizirlik kursuna başlamış, Silahlı Qüvvələrdə "gizir" rütbəsində xidmətini davam etdirmişdir. O, Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində NATO tərkibli sülhməramlıların hərbi hissəsində xidmət etmiş, xidməti dövründə bir çox ölkələrdə, o cümlədən qardaş Türkiyə Respublikasında təlimlərdə və kurslarda olmuşdur. Hərbi xidmətində qazandığı uğur və nailiyyətləri saysız-hesabsız olan Qəzənfər dəfələrlə rəhbərlik tərəfindən fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir.*

*2016-cı ilin aprel ayının ilk 4 günü Azərbaycan üçün çox ağır keçir, düşmənlə təmas xətti yeni bir döyüşə şahidlik edirdi. Tarixə Aprel döyüşləri olaraq yazılan bu savaşda Qəzənfər*





*xüsusi təyinatlı gizir kimi ilk gündən irəli atılıb aslanlar kimi döyüşənlərdən olmuş,kəşfiyyatçı kimi Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərin ən qızğın yerlərində şücaətlə vuruşmuşdur. Onun döyüşdüyü nöqtə o qədər qaynar, təhlükəli idi ki, döyüşlər bitdikdən, atəşkəs bərpa olunduqdan 3 gün keçməsinə baxmayaraq Qəzənfərdən xəbər gəlmədiyindən o, itkin düşmüş kimi axtarılmış, hətta şəhid olma xəbəri belə yayılmışdır. Lakin xoşbəxtlikdən Qəzənfər hərəsinin çiynində bir nəfər yaralı əsgər yoldaşı olan 4 nəfərlik döyüşçüsü ilə birgə mühasirəni yararaq 3 gündən sonra geri dönmüş, əzizləri üçün elə bil ikinci dəfə həyata qayıtmış kimi olmuş, bununla bərabər hərbi biliklərini artırmış, döyüş təlimlərində müntəzəm iştirak etmişdir.*

*Aprel döyüşlərində olduğu kimi 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsinin ilk günündən Qəzənfər döyüşlərdə ilk iştirak edənlərdən olmuş, xüsusi təyinatlı olduğu üçün qızğın və ağır döyüşlərdə heç yorulmadan, çəkinmədən öndə gedənlərdən olmuşdur. O, Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına düşmənə həddini bildirdiyinə, döyüşün çox ağır şəraitdə keçməsinə baxmayaraq cəsurluq, məğrurluq, dözümlülük, yenilməzlik göstərdiyinə görə döyüş yoldaşları ona "Pələng" ləqəbini vermişlər.*

*5 oktyabr 2020-ci il tarixdə Qəzənfər 7 nəfərdöyüş yoldaşı ilə birlikdə Füzuli-Cəbrayıl istiqamətində var qüvvəsi ilə döyüşərək vətən uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdir. Səhərisi gün bu xəbər bütün Sumqayıtı yasa boğmuşdu. Oktyabrın 6-da Qəzənfər Mütəllimov Sumqayıt əhalisinin izdihamı ilə Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur. İgid döyüşçü, vətənpərvər, xüsusi təyinatlı kəşfiyyatçı, yenilməz vətən oğlu Qəzənfər Mütəllimov şəhadətindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.*

*Şəhid olanadək 2 illik evlilik həyatı yaşayan qəhrəmanımızın bu evlilikdən az da olsa ata şəfqətini yaşamış olan Mələk və atasının heç üzünü görməyən Nişanə adlı iki qız övladı bizlərə yadigar, həmdə əmanət qalıb. Biz də deyirik; Əmanətin əmanətimizdir, Şəhidim!*

*Gəlin şəhidimizinsaatlarla danışılsa belə kifayət etməyəcək qədər dərin, mənalı və əvəzsiz olan ömür yolunu onun ömür-gün yoldaşı Zöhrə xanımın dilindən eşidək.*

**- Salam. Xahiş edirəm, əvvəlcə, özünüzü təqdim edəsiniz.**

- Salam. Mən, Xüsusi Təyinatlı Qüvvələrin giziri şəhid Qəzənfər Mütəllimovun xanımı Zöhrə Mütəllimovayam.

**- Xahiş edirəm, şəhidimizlə harada, necə tanış olmağınız, ailə həyatı qurmağınız barədə danışasınız. O, ürəyini ilk dəfə sizə açarkən sizdə nə kimi təəssürat yaranmışdı?**

Mən orta təhsilimi Qəzənfərlə bir məktəbdə almışam. Qəzənfər məndən bir sinif yuxarıda oxuyurdu. O, çox nadinc şagird idi. Onun orta məktəbdə etdiyi nadinclikləri hələ də yadımdadır. Sonra Qəzənfər orta məktəbin 9-cu sinifdən çıxıb sənədlərini peşə məktəbinə vermişdi. O vaxtdan sonra onu görməmişdim. 2016-cı ildə "Asan xidmət"də könüllü kimi işləyirdim. Qəzənfərin 25 yaşı tamam olduğuna-görəşəxsiyyət vəsiqəsini dəyişmək üçün "Asan xidmət"ə gəlmişdi. Aradan uzun müddət keçdikdən sonra mən onu uzaqdan gördüm. Həmin il Aprel döyüşləri başlamışdı. Qəzənfər Aprel döyüşlərində Talış kəndi istiqamətində ağır döyüş yolu keçmişdi. Müharibədən döndükdən sonra Qəzənfərlə 2017-ci il oktyabrın 17-i tanış olduq. Mən universiteti qurtarıb Sumqayıtda tibb klinikasında işləyirdim. Onda Qəzənfərdə Cəlilabadda hərbi hissədə xidmət edirdi. Məzuniyyətə gəlmişdi. İşdən çıxanda mənə yaxınlaşdı və öz fikrini bildirdi. Biz 2018-ci il iyunun 24-ü ailə qurduq. Çox gözəl, xoşbəxt ailə idik. 2019-cu ildə ilk övladımız Mələk dünyaya gəldi. Qəzənfər çox ailəcanlı, xoşxasiyyət biri idi. Nə xoş halıma ki Allah taleyimi Qəzənfər kimi birisi ilə birləşdirdi. Çox təəssüf ki, bu həyatı yaşamaq mənə yalnız 2 il qismət oldu.Onunla birgə yalnız bu qısa müddəti ömürgün yoldaşı kimi yaşaya bildik. Amma mənim üçün hər anı müqəddəs olan bu 2 ildə o, heç vaxt məni incitmədi, qəlbimi qırmadı. Onun kimi bir insanın ailəsi olmaq mənim üçün fəxarətdir.

**- Şəhidimizin xüsusiyyətləri, xarakteri və xasiyyəti haqqında nə deyə bilərsiniz? Onun böyüklə-kiçiklə, qocalarla, uşaqlarla münasibəti necə idi?**

Qəzənfər çox dürüst, qəlbi təmiz, xeyirxah birisi idi. Böyüklə böyük, kiçiklə kiçik idi. İdeal biri idi. Onu tanıyan hər kəs necə gözəl insan olmağından danışır. İnsanlığa xas xüsusiyyətlərin hamısı Qəzənfərdə cəmləşmişdi. Həmişə öz halal zəhməti ilə ailəsini dolandırırdı. İmkanı daxilində ehtiyacı olanlara əl tuturdu. O beləcə 28 illik ömrünü şərəflə yaşadı. Onun kimi bir ailəm olduğu üçün qürur duyuram. Balalarının qəhrəman atasıdır Qəzənfər.- Hərbi xidmət, Vətənə xidmət onun həyatının mayası, qayəsi, ən əsası idi.

**- Şəhidimiz təlimlərdə tez-tez olurdumu? Keçdiyi təlimlər barədə sizə nə isə məlumat verirdimi?**

Qəzənfər öz vətənimizdə, eləcədə bir çox xarici ölkələrdə (Türkiyə, Bolqarıstan, Rumıniya) hərbi kurslarda və təlimlərdə olmuşdu. Bu təlim və kurslarda əldə etdiyi yüksək nailiyyətlərə görə çoxlu fəxri fərmanlarla, diplom və medallarla təltif edilmişdi. 2015-ci ildən Xüsusi Təyinatlı taborunun xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı kursunu uğurla keçərək kəşfiyyatçı kimi ayrı-ayrı hərbi hissələrdə xidmət etmişdi. O, 2020-ci ilin, demək olarki, bütün yayını təlimlərdə olmuşdu. İşi barəsində çox danışmırdı. Həmişə peşəsinin sirrini saxlayırdı. Bu baxımdan da hərbi təlimlərdə nələr keçdiyi barədə evdə heç danışmazdı. İşini elə çox sevirdiki, vətəninə, xalqına xidmət etməkdən qürur duyurdu.

***(Davamı var)***

***Sevindik NƏSİBOĞLU,***
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü.***